Tofiq Quliyevin mahnıları Mahnı Teatrında

Dünən Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında paytaxt musiqisevərlərinə görkəmli bəstəkar, Xalq artisti Tofiq Quliyevin mahnılarından ibarət konsert proqramı təqdim olunub.

Konsertdə Mirxalid Salayevin rəhbərlik etdiyi instrumental ansamblın müşayiəti ilə teatrın solistləri bəstəkarın populyar mahnılarını səsləndirərək iştirakçılara nostalji, eyni zamanda, xoş anlar bəxş ediblər. Ünlü sənətçilər Gülyanaq və Gülyaz Məmmədovalar, Heydər Anatollu və digər müğənnilərin bir-birindən maraqlı ifaları Tofiq Quliev musiqisinin həmişəyaşarlığını nümayiş etdirib.

Xatırladaq ki, Tofiq Quliyev Azərbaycan musiqi mədəniyyətində estrada-caz musiqisinin təməlini qoyaraq, yeni səhifə açmış korifey sənətkardır. O, Azərbaycan professional musiqi ənənələrinin Üzeyir Hacıbəyli tərəfindən əsası qoyulmuş istiqamətinin davamçısı olmaqla bərabər, yeni bir musiqi-mədəni janrın – estrada və caz musiqisinin, ilk Azərbaycan Dövlət Caz Orkestrinin yaradıcısıdır. 5 musiqili komediya , valslar, fortepiano üçün prelüd, variasiyalar, eyni zamanda, bir çox kino musiqilərinin müəllifi olan görkəmli bəstəkar estrada musiqisinin əvəzsiz sənətkarı kimi də tanınıb. Bəstəkarın lirik, şux, nikbin və oynaq çalarlı mahnıları ürəklərdə yaşayır. Bu gün böyük bəstəkar aramızda olmasa da, onun mahnıları müxtəlif tədbirlərdə, konsertlərdə daim eşidilir.

XQ

Xalq qəzeti .- 2025.- 2 fevral (№ 23). - S.11.